TƏSDİQ EDİLMİŞDİR
Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi
Farmakoloji və Farmakopeya
Ekspert Şurasının sədri
_____________ E.M.Ağayev
"10" noyabr 2017-ci il

Dərman vasitəsinin istifadəsi üzrə təlimat (xəstələr üçün)

**SİNNABSİN** tabletlər
CINNABSIN®

**Tərkibi**
*Təsiredici maddələr:* 1 tabletin (250 mq) tərkibində 25 mq Cinnabaris trit. D3, 25 mq Echinacea trit. D1, 25 mq Hydrastis trit D3, 25 mq kalium bichromicum (kalium-bixromat) trit. D3 vardır.
*Köməkçi maddələr:* laktoza monohidrat, maqnezium stearat, buğda nişastası.

**Farmakoterapevtik qrupu**
Homeopatik dərman vasitəsi.
**ATC kodu:** R01B.

**Farmakoloji xüsusiyyətləri**
Homeopatik terapiya, xəstəlik anlayışında və dərman substansiyalarının istifadəsinə münasibətdə ənənvi tibbi terapiyadan seçilir. Homeopatik vasitələr orqanizmin müdafiə gücünü stimullaşdırır və beləliklə potensial özünümüalicəni aktivləşdirir. Homeopatik vasitələrə qarşı orqanizmin cavabı qəti şəkildə fərdidir.Bu səbəbə görə dozaspesifik farmakoloji effektlər, farmakodinamik və ya farmakokinetik məlumatlar müəyyən edilə bilməz.

**İstifadəsinə göstərişlər**
Kəskin və xroniki rinosinusut.

**Əks göstərişlər**
Preparatı xroma, Exinaseyeyə və digər mürəkkəbçiçəklilərə və ya preparatın istənilən komponentinə qarşı yüksək həssaslıq zamanı istifadə etmək olmaz. Sinnabsini aşağıdakı proqressivləşən sistem xəstəliklər zamanı istifadə etmək olmaz: vərəm, sarkoidoz; ağ qan hissəciklərinin sistem xəstəlikləri (leykemiya və leykoz), autoimmun xəstəliklər (məsələn, kollagen toxumasının iltihabi xəstəlikləri (kollagenoz), dağınıq skleroz), immunnodefisit zamanı (QİÇS, İİV infeksiyası), immunitetin zəifləmiş vəziyyəti (məsələn, orqan və ya sümük iliyinin transplantasiyası, kimyaterapiya) və ya xroniki virus xəstəlikləri.
Preparat 2 yaşa qədər uşaqlarda və hamiləlik dövründə əks göstərişdir.

**Xüsusi göstərişlər və ehtiyat tədbirləri**
Preparatın tərkibində laktoza və buğda nişastası vardır. Bu səbəbə görə qalaktozaya qarşı dözümsüzlük, laktaza çatışmazlığı və ya qlükoza-qalaktoza malabsorbsiyası sindromu kimi nadir irsi xəstəliyi olan pasiyentlər preparatdan istifadə etməməlidirlər. Buğda

nişastasının tərkibində qlüten ola bilər (ancaq izi görünə biləcək qədər), bu səbəbə görə seliakiyalı pasiyentlərdə təhlükəli deyil. Buğdaya qarşı allergiyası olan pasiyentlər (seliakiyadan fərqlənir) preparatdan istifadə etməməlidirlər.
Aşağıdakı hallar baş verdikdə həkimə müraciət etmək lazımdır: sifətin ödemi, qızdırma və ya bərk başağrısı, müalicənin ilk 2 günü ərzində kəskin vəziyyətin dəyişməməsi və ya pisləşməsi, eləcə də əlavə şikayətlərin meydana gəlməsi.

**Digər dərman vasitələri ilə qarşılıqlı təsiri**
Digər dərman vasitələri ilə qarşılıqlı təsiri məlum deyil. Eyni vaxtda digər dərman vasitələrinin qəbuluna ehtiyac olduqda, həkimlə məsləhətləşmək lazımdır.

**Hamiləlik və laktasiya dövründə istifadəsi**
Sinnabsinin tərkibində Echinacea olduğu üçün hamiləlik dövründə preparatın istifadəsi əks göstərişdir. Laktasiya dövründə preparatın istifadəsi, yalnız həkim məsləhətindən sonra mümükündür.

**Nəqliyyat vasitələrini və digər potensial təhlükəli mexanizmləri idarəetmə qabiliyyətinə təsiri**
Preparat nəqliyyat vasitələrini və digər potensial təhlükəli mexanizmləri idarəetmə qabiliyyətinə mənfi təsir etmir.

**İstifadə qaydası və dozası**
*İstifadə qaydası*
Preparatı yeməkdən ya 30 dəqiqə əvvəl, ya da 30 dəqiqə sonra qəbul etmək lazımdır. Tabletlər asta-asta ağız boşluğunda əriyir. Azyaşlı uşaqlara tabletləri xırdalayıb və bir qədər suda (məsələn, çay qaşığında) həll edərək vermək olar.
*Dozalanma rejimi*
*Böyüklər*
Kəskin vəziyyətdə, simptomların yaxşılaşmasına qədər hər 1 saatdan bir 1 tablet qəbul edilir. Gün ərzində maksimim 12 tablet istifadə etmək olar. Sonrakı müalicəyə qədər gündə 3 dəfə 1-2 tablet təyin edilir.
İnfeksiyaların profilaktikası məqsədilə gündə 3 dəfə 1-2 tablet istifadə edilir.
*Pediatrik qrup*
*2-5 yaşlı uşaqlar*
Kəskin hallarda, pasiyentin vəziyyəti yaxşılaşana qədər gündə 3 dəfə 1 tablet təyin edilir. Sonrakı müalicədə gündə 3 dəfə 1 tablet rejimi ilə davam etdirilir.
*6-11 yaşlı uşaqlar*
Kəskin hallarda, pasiyentin vəziyyəti yaxşılaşana qədər hər 2 saatdan bir 1 tablet təyin edilir (6 tabletdən artıq qəbul etmək olmaz). Sonrakı müalicədə gündə 3 dəfə 1 tablet rejimi ilə davam etdirilir.
*12 yaşdan yuxarı uşaqlar*
Kəskin hallarda, simptomların yaxşılaşmasına qədər hər 1 saatdan bir 1 tablet qəbul edilir (gün ərzində 12 tabletdən artıq istifadə etmək olmaz). Sonrakı müalicəyə qədər gündə 3 dəfə 1-2 tablet təyin edilir.
Xəstəliyin xroniki hallarında uşaqlara və böyüklərə gündə 3 dəfə 1 tablet təyin edilir. Məsləhət görülən müalicə müddəti 4-6 həftədir.
Həkim məsləhəti olmadan Sinnabsini 4 həftədən artıq qəbul etmək olmaz.

**Əlavə təsirləri**

Nadir hallarda dəri səpgisi daxil olmaqla yüksək həssaslıq reaksiyaları və mədə-bağırsaq pozulmaları mümkündür.Tərkibində exinaseya olan digər preparatları qəbul edən pasiyentlərdə allergik reaksiyalar müşahidə edilmişdir (dəridə səpgi, qaşınma, nadir hallarda – sifətin ödemi, dispnoe, başgicəllənmə və arterial təzyiqin enməsi). Exinaseye atopik pasiyentlər arasında allergik reaksiyalara səbəb ola bilər (məsələn, pollinoz, neyrodermit, allergik astması olan pasiyentlər). Bu cür arzuolunmaz hallar inkişaf etdikdə preparatın qəbulunu dayandırmaq və həkimə müraciət etmək lazımdır.

Sinnabsin preparatının qəbulundan sonra ağızsuyu ifrazı güclənərsə, dozanı azaltmaq və ya preparatın qəbulunu dayandırmaq lazımdır.

Hər hansı əlavə təsir yarandıqda, preparatın qəbulunu dayandırmaq və həkimə müraciət etmək lazımdır.

*Qeyd*

Homeopatik dərman vasitələrinin istifadəsi zamanı müvəqqəti olaraq ilkin pisləşmə mümkündür. Bu zaman sinnabsinin istifadəsini dayandırmaq və həkimlə məsləhətləşmal lazımdır.

**Doza həddinin aşılması**

Doza həddinin aşılması müəyyən edilməmişdir.

**Buraxılış forması**

20 tablet, blisterdə. 5 blister (100 tablet) içlik vərəqə ilə birlikdə karton qutuya qablaşdırılır.

**Saxlanma şəraiti**

15 °C-25°C temperaturda orijinal qablaşdırmada, uşaqlardan qorunan yerdə saxlamaq lazımdır.

**Yararlılıq müddəti**

5 il.

Yararlılıq müddəti bitdikdən sonra istifadə etmək olmaz.

**Aptekdən buraxılma şərti**

Reseptsiz buraxılır.

**İstehsalçı**

Doyçe Homeopati-Yunion, DHU- Arznaymittel QmbH&Ko.KQ
Ottoştrasse 24, 76227 Karlsrue, Almaniya.

Doktor Vilmar Şvabe QmbH & Ko.KQ
Vilmar-Şvabe Ştrasse 4, 76227 Karlsrue, Almaniya.